*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 iyun 2018-ci il № 42 (2258) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# İslam həmrəyliyini möhkəmləndirmək xarici siyasətimizin əsas prioritet məsələlərindən biridir

*Mayın 31-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibəti ilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.*



- Hörmətli səfirlər, sizi salamlayıram.

Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Mən fürsətdən istifadə edərək, xahiş edirəm ki, mənim salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə bizim ölkəmizin çox sıx dostluq əlaqələri vardır. Mənim ölkələrinizə səfərlərim, sizin ölkələrinizin dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunun əyani sübutudur. Bildiyiniz kimi, biz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Xüsusilə BMT-dəki əməkdaşlığı mən qeyd etmək istərdim. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımız çox uğurludur. Biz digər beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirik, bir-birimizi daim dəstəkləyirik.

Bizim dost ölkələrimiz, müsəlman ölkələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləyirlər. Bu dəstəyə görə mən sizə minnətdaram. Bildiyiniz kimi, bütün aparıcı beynəlxalq təşkilatlar bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edən qərar və qətnamələr qəbul etmişlər. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. BMT-nin Baş Assambleyası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ECO və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. Bu qərar və qətnamələr münaqişənin həlli üçün hüquqi zəmin yaradır. Bu qərar və qətnamələrin qəbul edilməsində həmin təşkilatlardakı müsəlman ölkələri iştirak edirlər, münaqişənin həllinə dəstək verirlər.

Bildiyiniz kimi, uzun illərdir ki, beynəlxalq birlik tərəfindən tanınan Azərbaycanın tarixi, əzəli torpaqları erməni işğalı altındadır. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı doğma torpaqda qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bizim şəhərlərimiz, kəndlərimiz ermənilər tərəfindən dağıdılıb. Muzeylərimiz talan edilib. Tarixi, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş vandallıqdır. Xalqımıza qarşı ermənilər Xocalı soyqırımı törədiblər. Ondan çox ölkə bu soyqırımını rəsmi qaydada qəbul edib.

Münaqişənin tezliklə həlli bölgəyə sabitlik, sülh gətirəcək. Münaqişənin tezliklə həlli üçün, ilk növbədə, Ermənistan öz işğalçı qüvvələrini işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarmalıdır və dünyanın ən ali qurumu olan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməlidir. Bu məsələ ilə bağlı ədalətli mövqeyinizə görə ölkələrinizə və sizə bir daha minnətdaram.

Azərbaycan da öz növbəsində beynəlxalq təşkilatlarda bütün müsəlman ölkələrinin maraqlarını dəstəkləyən qərar və qətnamələrə dəstək verir, onların bir çoxunun təşəbbüskarı olmuşdur. İslam Əməkdaşlıq Təşkilatı haqlı olaraq Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirir. Dəfələrlə bəyan etmişdir ki, Azərbaycan İslam həmrəyliyi məsələlərində çox önəmli rol oynayır. Bizim üçün İslam həmrəyliyini möhkəmləndirmək xarici siyasətimizin əsas prioritet məsələlərindən biridir. Biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Bildiyiniz kimi, keçən il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Ölkələrinizin iştirakı ilə Bakıda mötəbər IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Bu Oyunlar sadəcə olaraq idman yarışı deyil, eyni zamanda, İslam dünyasının birliyini nümayiş etdirib və biz çalışmalıyıq ki, İslam aləminin birliyini tam təmin edək.

Bu il Azərbaycanın qədim şəhəri olan Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. İkinci dəfədir ki, Azərbaycan şəhəri bu şərəfli ada layiq görülür. Birinci dəfə Bakı şəhəri bu ada layiq görülmüşdür. Bu, bizi çox sevindirir. Bu, onu göstərir ki, bütün müsəlman dünyası Naxçıvanı qədim Azərbaycan diyarı, müsəlman diyarı kimi tanıyır. Naxçıvanda yerləşən, bütün müsəlman ictimaiyyəti üçün önəmli olan abidələrimiz dünya əhəmiyyətli abidələrdir.

Bildiyiniz kimi, Azərbaycan İslam mədəniyyətinin dünyada təqdim edilməsində də mühüm rol oynayır. Bir çox Avropa ölkələrində keçirdiyimiz sərgilər, təqdimatlar, digər mədəni tədbirlər İslam mədəniyyətini təbliğ edir, İslam dəyərlərini təcəssüm etdirir. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.

Mən bir daha sizi salamlayıram və sizə uğurlar, cansağlığı, xalqlarınıza xoşbəxtlik arzulayıram.

# Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev mayın 30-da Azərbaycan vətəndaşlarının 2018-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2018-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

# Respublika Günü Əfqanıstandakı sülhməramlılar tərəfindən qeyd olunub

*NATO-nun Əfqanıstandakı "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında iştirak edən sülhməramlılarımız 28 May Respublika Gününü qeyd ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, missiyada təmsil olunan ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilən bayram tədbirində ölkəmizin tarixi, mədəniyyəti, sənayesi, iqtisadi inkişaf yolu və hərb sahəsində əldə edilən nailiyyətlər barədə qonaqlara ətraflı məlumat verilib.

# Müdafiə naziri cəbhənin müxtəlif istiqamətlərində yerləşən ön xətt bölmələrində olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə xəttinin müxtəlif istiqamətlərində yerləşən ön xətt bölmələrində olublar.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, general-polkovnik Zakir Həsənov hərbi hissələrin döyüşə hazırlıq vəziyyətini yoxlayıb, üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və müvafiq tapşırıqlar verib.

Hərbi birliklərin komandanlıqları ilə keçirilən müşavirələrdə Müdafiə naziri Azərbaycan Ordusunun silahlanmasına yeni daxil edilən hərbi texnikanın müasir tələblərə tam cavab verdiyini vurğulayaraq müxtəlif silah növlərinin alınması prosesinin bundan sonra da davam edəcəyini diqqətə çatdırıb. Düşmənlə qarşıdurma xəttindəki vəziyyəti dəyərləndirən nazir Ali Baş Komandanın tapşırıqlarını, qarşıda duran vəzifələri, eləcə də düşmənin istənilən təxribatının qarşısının dərhal alınması ilə bağlı müvafiq göstərişləri şəxsi heyətə çatdırıb.

Hərbi qulluqçular Müdafiə nazirinə müraciət edərək işğal altında olan torpaqların tezliklə azad edilməsinə hər an hazır olduqlarını bildiriblər.



*Ön xətdən reportaj*

# "Bu torpaqlar bizimdi, bizim olacaq!"

Təbiətimizin bəxş etdiyi gözəllikləri seyr edə-edə, ön xətdə yerləşən "N" hərbi hissəsinə çatırıq. Səngərdə Vətənini, xalqını qoruyan əsgərlərimizin yanına tələsdiyimizdən kapitan Rail Ağayevlə qısa bir dialoqumuz yaranır. Şəxsi heyətin döyüş və fiziki hazırlığından, döyüş ruhunun yüksək səviyyədə olmasından söz açan zabit bildirir ki, aprel döyüşlərində qazanılan zəfər bütün şəxsi heyətimizdə olduqca böyük ruh yüksəkliyi yaratdı: "Yadımdadır, hər kəs bir nəfər kimi irəli, düşmən üzərinə atılırdı. Azərbaycan Ordusu bu döyüşlə sübut etdi ki, hər zaman ermənilərdən üstün olub, üstündür və həmişə üstün olacaq. Bu qələbə tək əsgərlərimizdə deyil, xalqımızda da ruh yüksəkliyi yaratdı. Vətəndaşlarımızdan "Bu torpaqları qorumaq tək Azərbaycan əsgərinin yox, həm də Azərbaycan xalqının müqəddəs borcudur. Xalq hər zaman Azərbaycan əsgərinin yanındadır" sözlərini eşitmək çox xoşdur".

Taqım komandirinin müavini gizir Ehtiram Qasımov döyüş növbətçilərini dəyişdirib, istirahətə gedən şəxsi heyətin silahlarına baxış keçirir. Onlara yaxınlaşıram. E.Qasımov bildirir ki, hər zaman növbəni təhvil-təslim edərkən silahlara mütləq baxış keçirilir. "İstənilən an ermənilər təxribata əl ata bilər. Bunun üçün silahlarımıza hər zaman qulluq göstərməliyik ki, döyüş zamanı heç bir gecikmə və yaxud narahatçılıq baş verməsin. Düşmənin təxribatlarının qarşısını ala bilək. Günün nizam qaydalarına uyğun olaraq şəxsi heyətimiz silahlarına mütəmadi qulluq göstərir. Onları hər zaman saz vəziyyətdə saxlayır".

Ordu sıralarına Zaqatala rayonundan çağırılan əsgər Elvin İsmayılov bildirir ki, hər zaman xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlməyə çalışır: "Növbədə düşmənlərimizi izləyərkən gözlərimin önündə amansızcasına qətlə yetirilən analarımız, bacılarımız, qardaşlarımız, qocalarımız durur. Onun üçün də hər zaman çalışıram ki, xidməti mi nümunəvi yerinə yetirim. Hər axşam balaca Zəhranın qismində amansızcasına qətlə yetirilən körpələrin səslərini eşidirəm. Hər kəs bilməlidir ki, Azərbaycan oğulları axıdılan qanın qisasını yerdə qoymayacaq. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən hər bir vətəndaşımızın qisası alınacaqdır. Bunun üçün Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini gözləyirik".



Şəxsi heyəti təhlükəsizlik qaydaları ilə tanış edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Zaur Heydərov dayısı Nadir Rəhimovun Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olduğunu və bir neçə qohumunun döyüşlər zamanı itkin düşdüyünü öyrənirəm. "Qarabağda şəhid olanlar hər birimizin qohumudur. Çünki onlar canlarından bu Vətən, bu torpaq üçün keçiblər. Onların qisasını almaq, igidlərimizin qanları axıdılan torpaqlarımızı işğaldan azad etmək boynumuzun borcudur."

Əsgər Arif Qayıbov qeyd edir ki, torpaqlarımız üçün canını fəda etməyə hazırdır: "Bu torpaqlar bizə dədə-babalarımızdan qalıb. Onları da qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur. Mən və əsgər yoldaşlarım döyüş hazırlığımızı yüksəldirik ki, əmanəti qoruyaraq, düşmənə sarsıdıcı zərbələr endirə bilək. İnanıram ki, arzumuz tez bir zamanda reallaşacaq".

- Bura bizim üçün doğmadır. Hər kəs bizə əzizdir. Bir-birimizə hörmət və rəğbət bəsləyirik. Asudə vaxtlarımızda söhbətlər edir, dama, şahmat oynayır və hərbi biliklərimizi artırmaq məqsədi ilə kitablar oxuyuruq. Günün nizam qaydalarına uyğun olaraq xidmətimizi düzgün təşkil edir, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında və dəqiq yerinə yetiririk. Səbirsizliklə döyüş meydanına atılacağım günü gözləyirəm. Biz torpaqlarımızı düşməndən azad edəcəyik. Tarixən bu torpaqların kimə məxsus olduğunu onlara bir daha da sübut edəcəyik, - deyə ordu sıralarına Bakı şəhərindən çağırılan əsgər Cəfər Salayev bildirir.

Əsgər Ülvi Vahabov ön xətt bölmələrindən birində əsgər olmağı arzuladığını bildirir: "Məktəb vaxtlarından müəllimlərimizdən ermənilərin bizim xalqın başına açdığı müsibətləri eşitmişik. Xalqımızın başına gətirilən faciələri özündə əks etdirən fotoşəkillərə baxdıqca ürəyim paramparça olurdu. Ön xətdə xidmət etmək mənim üçün daha qürurvericidir. Bu gün mən - əsgər Ülvi Vahabov torpaqlarımızın müdafiəsində son nəfəsimə qədər dayanmağa hazıram. Bu ruh yüksəkliyini isə bizdə yaradan komandirlərimizdir. Onlar həmişə bizim qayğımızı, əziyyətimizi çəkirlər. Belə ehtiramın qarşısında üzərimizə düşən Azərbaycan əsgərinə layiq xidmət etməkdir".

Əsgərlər Anar Qasımlı, Tərlan Şərifov, Emil Seyfəddinzadə və digərləri bildirirlər ki, Vətənin keşiyində dayanmağı özlərinə müqəddəs borc bilirlər və torpaqlarımız uğrunda canlarından keçməyə də hazırdırlar.

**Leytenant Orxan HÜSEYNLİ, "Azərbaycan Ordusu", foto Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**1 iyun 2018-ci il.** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 96 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Yarımca, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Cəvahirli, Kəngərli, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*15 İyun Milli Qurtuluş Günüdür*

# Dövlətçiliyimiz yaşadıldı, yaşadılacaq

Sovet dönəmində uzun illər Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev respublikamızın iqtisadi, siyasi, sosial və mədəni tərəqqisi üçün böyük işlər görmüşdü. O zaman sənayenin, kənd təsərrüfatının dirçəldilməsi, ölkəmizdə müasir zavod və fabriklərin inşasına nail olmaq, iqtisadi inkişafın həlledici amillərindən olan böyük enerji layihələrinin gerçəkləşdirilməsi, su-elektrik stansiyalarının tikintisi, əslində, Azərbaycanın iqtisadi potensialının artırılmasını təmin etmişdi. Əsas kənd təsərrüfatı sahələrindən olan pambıqçılığın və üzümçülüyün genişləndirilməsi yekunda insanların maddi rifahının xeyli yüksəlməsinə gətirib çıxarmışdı.



Azərbaycan gənclərinin İttifaqın ən yüksək reytinqli elm və təhsil ocaqlarına göndərilməsi, ölkəmizdə yeni təhsil ocaqlarının açılması, insan kapitalına qoyulan ən əhəmiyyətli yatırımlar ölkəmizin gələcəyinə hesablanmış mühüm addımlar idi. Onlar qazandıqları bilik və bacarığı sonradan müstəqil Azərbaycan naminə istifadə edəcəkdilər.

Ümummilli Liderin Azərbaycan naminə ən böyük xidməti dövlətçiliyimizi xilasetmə missiyası idi. Sanki SSRİ-nin süqutu və müstəqilliyimizin ilk illərində Azərbaycanda seçim imkanı yaranmışdı: ölkəyə rəhbərlik edən siyasi liderləri fəaliyyətlərinə görə müqayisə etmək və xalqı təhlükələrdən xilas etmək gücündə olan siyasi xadimin ətrafında birləşərək bütün fəlakət və çətinliklərdən qurtarmaq.

Həmin mürəkkəb və keşməkeşli illərdə ölkəmizin rəhbərliyində təmsil olunmuş qüvvələrin siyasi baxımdan qeyri-peşəkarlığı, tarixin gedişini düzgün qiymətləndirməməsi və hadisələrin inkişafını obyektiv dəyərləndirməməsi nəticəsində xalqımız ağır sınaqlardan keçməli olmuşdu.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışı günü - 15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Müstəqilliyimizin ilk illərində Ulu Öndərin rəhbərliyi və gərgin fəaliyyəti nəticəsində Azərbaycan xalqı tənəzzül və xaosdan azad olmağı bacardı. Prezident Heydər Əliyev dövlət çevrilişi cəhdlərini, müxtəlif manevləri cəsarət və qətiyyətlə dəf edərək ölkəmizi ağır böhrandan xilas etdi, inkişaf və tərəqqi yoluna çıxartdı. Böyük iradəsi və gərgin zəhməti bahasına ölkə daxilində sabitlik və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaratdı. Ümummilli Liderimizin müdrik siyasəti nəticəsində ölkəmizin iqtisadi tərəqqisində əhəmiyyətli rol oynayan "Əsrin müqaviləsi" imzalandı. Dövlətimiz faktiki olaraq bununla dinamik inkişaf yoluna qədəm qoydu.

Ümummilli Liderin rəhbərliyi dövrü - 1993-2003-cü illər ölkəmiz üçün həlledici zaman oldu, o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi, ölkəmiz faktiki olaraq dünya birliyinə qovuşdu.

O illərdə müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsi ilə siyasi sistem möhkəmləndirildi və ölkəmizin hərtərəfli inkişafı üçün möhkəm zəmin yaradıldı. Mahiyyət etibarilə həmin illər ərzində görülmüş işlər ölkəmizin hazırkı uğurlu inkişafının təməli oldu.

Böyük iqtisadi layihələrin gerçəkləşdirilməsi, başqa sahələrdə olduğu kimi, ordu quruculuğunda da ciddi islahatların həyata keçirilməsi üçün dönüş nöqtəsi oldu. Ölkəmizdə ordu quruculuğu prosesi məhz Ulu Öndərin adı ilə bağlıdır. Öncə orduda neqativ halların aradan qaldırılması, mənəvi-psixoloji mühitin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər görüldü. Hərbi intizamın, vahid komandanlıq prinsipinin möhkəmləndirilməsi, döyüş hazırlığı problemlərinə və təlim prosesinə diqqət yetirilməsi, ordunun maddi-texniki təminatının ilbəil yüksəldilməsi nəticəsində Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Hazırda ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırmaqdadır. Çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında mühüm rol oynayan ölkədir.

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində ən böyük nailiyyətlərindən biridir. Azərbaycan 2011-ci ildə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətin dəstəyini əldə edərək 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazandı. Bu, Ulu Öndərin davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun göstəricisinə çevrildi.

2005-ci ildə Avropa Şurasının Parlament Assambleyası Dağlıq Qarabağ münaqişəsinə dair 1416 saylı qətnamə qəbul edərək Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyini rəsmən tanıdı. AŞ PA həmin sənəddə Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək ifadə etdi, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Ermənistanın Azərbaycan ərazilərini dərhal işğaldan azad etməsini tələb edən dörd qətnaməsinin hələ də icra olunmadığını xatırlatdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin fəaliyyətini daim diqqətində saxlayır. Ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji məsələlərdəndir.

Dövlətimizin və müstəqilliyimizin qarantı olan Azərbaycan Ordusu bu gün ən müasir silah və texnika ilə silahlanmış, yüksək təchizata, intizama və döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir.

Ulu Öndərin formalaşdırdığı və yaratdığı zəmin üzərində inkişaf etmiş Azərbaycan Ordusunun bu gün nəyə qadir olduğu aprel döyüşlərində təsdiqləndi. Ordumuz bir daha sübut etdi ki, işğal edilmiş ərazilərimizi azad etməyə və Vətənimizin ərazi bütövlüyünü təmin etməyə qadirdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dedi: "...Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır". Bu fikir Azərbaycanda ordu quruculuğunun həmişə prioritet olmasının nəticəsidir.

Qurucusu böyük tarixi şəxsiyyət Heydər Əliyev olan Azərbaycan Ordusunun döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsi dinamik surətdə inkişaf edir, edəcəkdir...

**"Azərbaycan Ordusu"**

## Bakıda PAP üzrə NATO-nun ekspertlər qrupu ilə işçi görüşü keçirilib

Mayın 30-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasının NATO ilə "Planlaşdırma və Analiz Prosesi (PAP) Tərəfdaşlıq Məqsədləri (TM)" sənədinin Müdafiə Nazirliyinə aid hissəsinin həyata keçirilməsi üzrə NATO-nun ekspertlər qrupu ilə işçi görüşü keçirilib.

Tədbirdə müdafiə sahəsində aparılan islahatlar, NATO ilə əməkdaşlıq, PAP proqramı üzrə Tərəfdaşlıq məqsədlərinin yerinə yetirilməsi və mümkün olan yeni Tərəfdaşlıq məqsədləri müzakirə olunub.

## HDQ-də "Dəniz Kuboku-2018" müsabiqəsinin təşkilat komitəsinin görüşü keçirilib

*İyunun 1-də Hərbi Dəniz Qüvvələrinin (HDQ) qərargahında Beynəlxalq Ordu Oyunları çərçivəsində Bakıda keçiriləcək "Dəniz Kuboku-2018" müsabiqəsinə hazırlıq üzrə təşkilat komitəsinin ilk görüşü keçirilib.*

Hərbi dənizçilər arasında yarışların yüksək səviyyədə keçirilməsi məqsədilə Müdafiə nazirinin əmrinə əsasən yaradılmış təşkilat komitəsinin üzvləri gəmilərin və dəniz infrastrukturunun hazırlığı ilə bağlı məsələləri müzakirə edib və aidiyyəti üzrə tapşırıqlar verilib.

Cari ilin iyulun 31-dən avqustun 10-dək Xəzər dənizinin ölkəmizə aid əraziləri sularında keçiriləcək "Dəniz Kuboku-2018" müsabiqəsində Azərbaycan, Rusiya, Qazaxıstan və İran hərbi dənizçilərinin iştirakı planlaşdırılır.

## "Ən yaxşı Hava Hücumundan Müdafiə batareyası" adı uğrunda yarış keçirilir



Hava Hücumundan Müdafiə (HHM) qoşunlarının təlim mərkəzində "Ən yaxşı Hava Hücumundan Müdafiə batareyası" adı uğrunda yarış keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışlara müxtəlif zenit-raket kompleksləri və zenit qurğuları batareyalarının döyüş heyətləri cəlb olunub.

Bir neçə mərhələdən ibarət yarışlar zamanı batareyaların döyüş heyətləri atış, atəşin idarəolunması, texniki, fiziki, taktiki, atəş və xüsusi hazırlıq üzrə bacarıqlarını nümayiş etdirəcək.

Yarışların yekun nəticələrinə görə ən yaxşı HHM batareyası müəyyən ediləcək.

## "Ən yaxşı tank bölüyü komandiri" adı uğrunda yarış keçirilir



Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı tank bölüyü komandiri" adı uğrunda yarış keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışda tank heyətləri minalanmış sahələri, digər maneələri dəf etdikdən sonra təyin olunmuş müddətdə hədəflərin yerindən və hərəkətdə məhv edilməsi üzrə tapşırıqları icra edirlər.

Nəticələrə əsasən ən yaxşı tank bölüyü komandiri müəyyən olunacaq.

# Yüksək döyüş ruhu qələbəyə zəmin yaradır

Danılmaz faktdır ki, güclü ordunun formalaşmasında mühüm amillərdən biri də şəxsi heyətin döyüş ruhunun yüksək səviyyədə olmasıdır. Günün tələbi kimi ordumuzda bu istiqamətdə həyata keçirilən uğurlu islahatların nəticəsində hər kəs ruh yüksəkliyi ilə xidmət edir. Aprel döyüşlərində hərbi qulluqçularımızın qəhrəmanlığı, mərdliyi bunun bariz nümunəsidir. Əsgərlərimizin təxribat törədən düşməni məğlubiyyətə uğratması bir daha sübut etdi ki, döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji hazırlığın da yüksək olması qələbəyə zəmin yaradır. Bu istiqamətdə həyata keçirilən ən mühüm tədbirlərdən biri də ictimai-siyasi hazırlıq məşğələləridi. Tariximizi, mədəniyyətimizi, dövlət siyasətimizi özündə əks etdirən mövzularda keçirilən dərslər şəxsi heyətin dünyagörüşünün artırılması, biliklərinin genişləndirilməsi və milli dəyərlərimizə, dövlətçiliyimizə sadiq vətəndaşlar kimi formalaşmasına istiqamətlənir.




İctimai-siyasi hazırlıq məşğələsi "N" hərbi hissəsində də səmərəli təşkil olunur. Mayor Rauf Niyazov ilk olaraq diqqətimi sinif otağının təmirli və yeni avadanlıqlarla təchiz olunmasına yönəltdi. "Gördüyünüz kimi, sinif otağında ordumuzun inkişaf tarixinin mərhələlərini, ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin cəbhə xəttində şəxsi heyətlə görüşlərini, Hərbi andı və Dövlət himnini əks etdirən eksponatlar, mövzu üzrə kinofilmlər və videoroliklər izləmək üçün televizor var".

Zabit Rauf Niyazovla birgə dərs prosesində iştirak edirik. Məşğələyə yaxşı hazırlaşan, mövzu üzrə müxtəlif materiallardan istifadə edərək şəxsi heyətə geniş məlumat verən qrup rəhbəri leytenant Vüsal Ağazadə sualları cavablandırdıqdan və əsgərləri qiymətləndirdikdən sonra dərsi başa çatdırır.

Söhbət zamanı öyrənirəm ki, leytenant Vüsal Ağazadə 2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunu olub. Bir müddət orta məktəblərin birində dil-ədəbiyyat fənnini tədris edib. Hərbçi olmaq istəyi əbəs yerə yaranmayıb. Ailədə ondan başqa bu peşənin sahibi olan daha iki nəfər də var. Hər bir valideyn üçün böyük fəxrdir ki, üç oğlunu üçü də şərəfli peşə sahibi olsun. Bütün bunlar ailədə, məktəbdə, cəmiyyətdə vətənpərvərliyin yüksək səviyyədə təbliğ olunmasından irəli gəlir.

- Mövzumuz "Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir", - deyən leytenant Vüsal Ağazadə mənəvi-psixoloji hazırlığın artırılması, vətənpərvərlik hissinin və döyüş ruhunun aşılanmasında ictimai-siyasi hazırlıq məşğələlərinin mühüm rol oynadığını bildirir. - Əsgərin mənəvi-psixoloji vəziyyətini yüksəltmək, daim döyüşə hazır vəziyyətdə saxlamaq, düşmənini tanıtmaq, onun haqqında məlumat vermək və onlara Vətən sevgisi, düşmənə nifrət aşılamaq hər birimizin vəzifə borcumuzdur. İctimai-siyasi hazırlıq məşğələləri bu istiqamətdə həyata keçirilən ən əhəmiyyətli tədbirlərdən olub, əsgərlərin milli dəyərlərimizə sədaqət ruhunda formalaşmasına birbaşa təsir edir.

Vüsal Ağazadə hərb peşəsini seçdiyi üçün qürurlandığını da bildirir: "Təhsilimi başa vurduqdan sonra qarşıma bir məqsəd qoydum. Zabit olacam, universitetdə öyrəndiklərimi xidmətdə istifadə edəcək, əsgərlərimin döyüş ruhunu artırmaq, onlara müəyyən mənəvi-əxlaqi keyfiyyətləri aşılamaq üçün bütün biliklərimi səfərbər edəcəm", - zabit deyir.

Qrup rəhbərinin köməkçisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Vidadi Rəhimzadə həm də şəhid əmisinin adını daşıyır. Əmisi Vidadi Rəhimov 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub. "Şəhid adı daşımaq qürurvericidi. Bu ada layiqli xidmət edir, onların canı bahasına qorunub saxlanılan torpaqlarımızın keşiyində inamla dayanıram", - əsgər V.Rəhimzadə deyir. Söhbətinə davam edən Vidadi bildirir ki, hər hansı bir məşğələyə hazırlaşarkən mövzu qəzet və jurnallardan, kitablardan araşdırılır, plan-konspekt tutulur, videoroliklər hazırlanır. Daim çalışırıq ki, dərsi elə səviyyədə təşkil edək ki, şəxsi heyətin hər biri mövzunu yaxşı mənimsəsin. Bunun üçün bütün imkanlardan maksimum istifadə edirik. Üzərimizə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlməliyik ki, Ali Baş Komandanın bizə olan etimadını daim doğruldaq.

Dərsdə həvəslə və maraqla iştirak edən əsgərlərlə söhbətləşirəm. Mövzuya aid sualları Cavid Sadıqov, Cahan Həsənzadə, Seymur Quliyev və digərləri dəqiqliklə cavablandırırlar.

"Hərbi xidmət bizim övladlıq borcumuzdu. Əsgər olmaqla hər birimiz fəxr edirik. Xidmətimizin mahiyyətini yaxşı dərk edir, ordumuza layiqli əsgər olmaq üçün bütün məsuliyyətimizlə xidmət edirik. Döyüş hazırlığı ilə yanaşı, keçirilən ictimai-siyasi hazırlıq dərsləri həm Vətənə olan sevgimizi, həm də dünyagörüşümüzü artırır. Dərslərdə Vətən uğrunda canlarından keçən igid oğullardan qəhrəmanlıq nümunələri göstərilir. Hər birimiz onların qəhrəmanlığını nümunə bilirik. Döyüş meydanında onlar kimi şücaət göstərməyə daim hazırıq", - əsgərlər deyirlər.

Tarixi köklərə bağlı olan əsgər Vətən sevgisinin, düşmənə nifrət hissinin nə olduğunu dərk edərək döyüşə qələbə əzmi ilə başlayır. Onun bir amalı olur: Vətən, torpaq uğrunda düşmənləri məhv etmək və son damla qanına qədər döyüşmək. Bu gün də ordumuzun üzərinə düşən işin öhdəsindən uğurla gəldiyi göz qabağındadı. Hərbi xidmətə çağırılan gənclər peşəkar zabit heyəti tərəfindən döyüş qabiliyyətli və mənəvi-psixoloji hazırlığı yüksək olan əsgərlər kimi formalaşırlar.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

## İyunun 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna 92 milyon manatadək vəsait daxil olub

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyunun 1-dək 91 milyon 117 min 673,5 manat, 213 min 577,88 ABŞ dolları, 11 min 336 avro və 5 min rubl vəsait yığılıb.

Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Hərb Tarixi Muzeyinə ekskursiya təşkil olunub

*Mayın 29-da gənclərimizdə hərbi vətənpərvərlik hissini gücləndirmək məqsədilə Azərbaycan Hərb Tarixi Muzeyinə 20 saylı məktəb-liseyin müəllimlərinin, şagirdlərinin və valideynlərinin ekskursiyası təşkil olundu.*



Bələdçi-tərcüməçi Nurtac Piralızadə qonaqlara muzeyin ilk zalı olan qədim, erkən, orta əsrlər dövrü, Manna-Midiya, Atropatena, Albaniya, Səfəvilər dövlətləri, Azərbaycanda xanlıqların yaranması və onların qoşun növləri haqqında ətraflı məlumat verdi. Muzey bələdçisi Gülnar Beşirova isə100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, qurucuları, dövlət atributları - gerbi, bayrağı, himni ilə bağlı ətraflı məlumatları ekskursiyada iştirak edənlərə çatdırdı.

Qonaqlar Ekspozisiya və arxiv fond üzrə rəis müavini Tələt Qarayevin müşayiəti ilə 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Azərbaycan Ordusunun yaranması və inkişafı, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, ordu quruculuğu ilə bağlı gördüyü işlər, keçirdiyi görüşlər, həmçinin Silahlı Qüvvələrin qoşun növləri üzrə hərbi geyim nümunələri ilə də tanış oldular.

Texnika və silah hissə rəisi İntiqam Əkbərovun Azərbaycan Hərb Tarixi Muzeyinin həyətində nümayiş olunan hərbi texnikalar haqqında verdiyi məlumat iştirakçılarda xoş təəssürat yaratdı.



Sonda müəllim Nərgiz Əlibəyova valideynlərdən Lamiyə Fərzəliyeva, Yeganə Abuşova, Aybəniz Muradova, Günel Zeynalova, Şükufə Mahmudova, Elnarə Zeynallı hər bir gəncin Vətəninin tarixini dərindən bilməsinin vacibliyindən, onlarda vətənpərvərlik hisslərinin daha da gücləndirməsindən danışdılar.

Şagirdlərdən Havin Məmmədli, Cavidan Muradov, Nasxanım Şamilzadə, Yusif Həsənzadə, Həsən Məmmədli və başqaları xoş təəssüratlarını bölüşdülər.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Müstəqilliyimizin beynəlxalq dayaqları uğurlu hərbi əməkdaşlıqda möhkəmlənir

## Cümhuriyyətin ordu diplomatiyası tarixinə qısa baxış

Beynəlxalq mürəkkəb şəraitdə müsəlman Şərqində öz dövlət müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti ilk növbədə ərazi bütövlüyünün və təhlükəsizliyinin təminatı istiqamətində zəruri addımlar atdı. Hökumət qısa müddətdə fəal və uğurlu xarici siyasət yürüdərək dövlət quruculuğunun tərkib hissəsi sayılan milli ordusunun da beynəlxalq aləmə çıxışını reallaşdırdı. Cümhuriyyət hökuməti xarici siyasətində ordu məsələlərinə xüsusi önəm verirdi. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə yaranan təhlükənin aradan qaldırılması məsələsi ən ciddi və həm də taleyüklü məsələ idi. Belə bir tarixi şəraitdə 1918-ci il iyunun 4-də Osmanlı Türkiyəsi ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq haqqında müqavilə - Batum sülh müqaviləsi imzalandı. Bu müqavilənin Cümhuriyyət üçün həmin dönəmdə əhəmiyyətli olan dördüncü maddəsində göstərilirdi ki, Osmanlı hökuməti, əgər zəruri olarsa, sülh və əmin-amanlığın möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Cümhuriyyətinə hərbi yardım göstərməyi öz üzərinə götürür.

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi diplomatiya tarixində mühüm əhəmiyyətə malik olan Batum sülh müqaviləsi Azərbaycana Osmanlı ordu hissələrinin göndərilməsinin mümkünlüyünü nəzərdə tuturdu. Beləliklə, bir hissəsi bolşevik diktaturasının əlinə keçmiş torpaqlar üzərində siyasi hakimiyyəti təsdiq və ərazi bütövlüyünü tam bərpa etməsi məsələsində Cümhuriyyətə hərbi yardım etməkdən ibarət tarixi missiyanı Türkiyə öz üzərinə götürdü. 15 sentyabr 1918-ci ildə xilaskar türk ordusu milli qoşun hissələri ilə birlikdə Bakını bolşevik-daşnak qoşun hissələrindən azad etdi. Azərbaycan Xalq Cümhuriyyəti Gəncədən paytaxt olaraq Bakıya köçürüldü.

Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hərbi diplomatiyasının ən böyük uğurlarından biri də Gürcüstanda Hərbi Attaşeliyin yaradılması idi. Bu uğurlu əməkdaşlığın nəticəsi olaraq Azərbaycan Ordusunda və hərbi təhsil sistemində milli kadrlarla yanaşı, gürcü əsilli zabitlər də xidmət edirdilər. Eyni zamanda, ordu quruculuğunda milli zabit kadrların çatışmazlığı probleminin aradan qaldırılması məqsədilə 1919-cu ilin əvvəllərində Cümhuriyyət Ordusunun 9 nəfərdən ibarət hərbi qulluqçusu kapitan Firudin bəy Qacarın başçılığı ilə Gürcüstandakı Tiflis aviasiya məktəbinə üç aylıq kursa göndərildi. Həmin dəstənin rəisi podporuçik Xan Teymurçin Əfşar təyin olundu.

Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hərbi diplomatiyasında İtaliya dövlətilə imzaladığı sazişlər mühüm yer alırdı. Cümhuriyyət hökuməti İtaliya ilə iqtisadi-siyasi əlaqələri gücləndirmək məqsədilə Azərbaycan Ordusunun generalı İbrahim ağa Usubovun başçılığı ilə Romaya nümayəndə heyəti göndərdi. Heyət "hərbi missiya" adlanırdı və əsasən hərbi-iqtisadi sahədə işlər görməli idi. İtaliya hökuməti 1920-ci il yanvarın 17-də Azərbaycanı de-fakto tanıması haqda qərarını general-mayor İ.Usubova təqdim edir və ölkəmizlə hərbi əməkdaşlığa üstünlük verir. General İ.Usubov Romada sənayeçi-senator S.E.Konti ilə görüşür. Görüşdə məqsəd, Azərbaycan Ordusunun maddi-texniki təminatının gücləndirilməsi üçün İtaliyadan hərbi geyim, silah və texnika almaq idi. 1920-ci ilin fevralında isə S.E.Kontinin başçılığı ilə 35 nəfərdən ibarət nümayəndə heyəti Azərbaycana gəldi. Əməkdaşlıq nəticəsində İtaliya Azərbaycandan neft, Azərbaycan isə İtaliyadan ordu üçün silah və hərbi geyimlər almalı idi. Lakin bolşevik işğalı Azərbaycan Ordusunun hərbi diplomatiya sahəsindəki uğurlu addımlarının reallaşmasına imkan vermədi. Yüz il bundan öncə Azərbaycan Xalq Cümhuriyyətinin başladığı hərbi diplomatiya siyasəti mürəkkəb tarixi şərait baxımından gerçəkləşə bilməsə də, bu gün onun varisi, müasir Azərbaycan o tarixi missiyanı - beynəlxalq hərbi əməkdaşlıq siyasətini uğurla davam etdirir.



## Azərbaycan “Təhlükəsizlik çətiri”nin etibarlı dayağıdır

Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini bərpa etdikdən sonra qədim dövlətçilik ənənələrinə və milli-mənəvi dəyərlərinə sadiq qalaraq çoxqütblü inkişaf modelləri sırasından Qərb dəyərlərini seçdi. Hərbi-siyasi təhlükəsizliyinə təminatı gücləndirmək, beynəlxalq birliyin tamhüquqlu subyektinə çevrilmək üçün aparıcı beynəlxalq təşkilatlarla, o cümlədən NATO ilə əməkdaşlığa mühüm önəm verdi. Digər tərəfdən də Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, Dağlıq Qarabağda başlanan erməni separatizmi və eləcə də hərbi təcavüzün genişlənməsi dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini tarixi zərurətə çevirir. Buna görə də Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, Azərbaycanımızın suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək üçün ölkənin ardıcıl və fəal xarici siyasətini, o cümlədən beynəlxalq hərbi əməkdaşlığını labüd edir.

1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev Şimali Atlantika Alyansı ilə hərbi-siyasi əlaqələrin dərinləşdirilməsini balanslaşdırılmış xarici siyasət doktrinasının prioritet vəzifələrindən biri kimi müəyyənləşdirərək bu istiqamətdə praktik addımların atılmasını təmin etdi. Alyansın beynəlxalq münasibətlər sistemindəki yerini və rolunu nəzərə alan Ulu Öndər respublikanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" (SNT) proqramına qoşulması barədə qətiyyətli qərar verərək, 1994-cü il mayın 4-də Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı.

Məhz Ulu Öndərin təşəbbüsü ilə Silahlı Qüvvələrimizin tərkibində yaradılmış xüsusi taborun şəxsi heyəti beynəlxalq terrorizmə qarşı mübarizə koalisiyasının üzvü kimi 1999-cu ilin sentyabrında Türkiyə taboru ilə birlikdə Kosovoda, Əfqanıstanda və İraqda sülhyaratma missiyasını həyata keçirməyə başladı. Bu gün də ordumuzun sülhməramlı qüvvələri Əfqanıstanda öz missiyalarını uğurla davam etdirir. Azərbaycan Ordusunun şəxsi heyətinin bir qrupu NATO sülhməramlılarının tərkibində adı çəkilən ölkələrdə sülhməramlı əməliyyatlarda iştirak hüququ qazanması respublikamızın müstəqilliyinin ilk illərində beynəlxalq nüfuzunun daha da güclənməsinə təkan verdi.

NATO-ya üzv dövlətlərin 10-11 yanvar 1994-cü il tarixdə keçirilmiş Brüssel sammitinin yekun bəyanatında ilk dəfə olaraq Cənubi Qafqazda vəziyyətə dair rəsmi münasibət əksini tapdı. Birgə bəyanatın 21-ci bəndində təşkilatın regiondakı münaqişələr və mürəkkəb vəziyyətlə bağlı narahatlığı ifadə olunurdu, sülhün, təhlükəsizliyin başlıca şərti kimi dövlətlərin ərazi bütövlüyü prinsipi önə çəkilirdi. NATO hərbi strukturları ilə əməkdaşlıq etmək, birgə təlimlər keçirmək, hərbi kadrların hazırlanmasında blokun təcrübəsindən bəhrələnmək və başqa imkanlar yaratmışdır. Bu əməkdaşlıq strateji məzmun kəsb etməklə, regionun mühüm enerji layihələrinin təhlükəsizliyinin gerçəkləşdirilməsinə də əsaslı təminat kimi nəzərdən keçirilir.

Bölgədə ən qüdrətli orduya malik Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə hərbi əməkdaşlığının inkişaf etdirilməsi məqsədilə NATO tərəfindən yaradılmış Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olması, "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşularaq (MDB-də 4-cü ölkə) hərbi təlimlərdə iştirak etməsi nizami ordumuzun NATO standartları səviyyəsində hazırlıqlı olmasının göstəricisidir. 2001-ci ildə Azərbaycanda "Kooperativ Determineyşn-2001" çoxmillətli komanda-qərargah təlimlərinin keçirilməsi milli ordumuzun Avropa və dünya standartlarına doğru uğurlu addımı kimi dəyərləndirilməlidir. Ölkəmizi layiqincə təmsil edən hərbçilərimiz beynəlxalq hərbi təlimlərdə fəal iştirak etməklə peşəkarlıq səviyyəsinə görə diqqəti çəkir. Azərbaycan zabitlərinin beynəlxalq standartlara cavab verən xidmətlərinin beynəlxalq hərbi ekspertlər tərəfindən yüksək qiymətləndirilməsi hər bir azərbaycanlıda qürur hissi doğurur. Bu baxımdan inamla demək olar ki, NATO ilə Azərbaycan arasında əməkdaşlığın getdikcə daha da güclənməsi ölkəmizdə ordu quruculuğuna göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Müstəqilliyimiz bərpa ediləndən sonrakı illərdə, xüsusilə 1994-2000-ci illərdə Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın vəziyyəti daha sıx və ümidverici görünürdü. O dövrdə Türkiyə Azərbaycanın Silahlı Qüvvələri üçün hərbi kadrların hazırlanması işinə böyük töhfə verdi. 2010-cu ildə imzalanmış "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə iki ölkə arasında hərbi əməkdaşlıq sahəsində intensiv irəliləyişlər ümidini yaratdı. Bu ölkələr arasında hərbi əməkdaşlıq baxımından perspektiv planlar mövcuddur və Türkiyə Azərbaycana hər zaman hərbi dəstəyini davam etdirməkdə qərarlıdır. Türkiyə Respublikasının bu mövqeyi hər il birgə keçirilən irimiqyaslı təlimlərdə özünü bir daha təsdiqləyir.

Ümummilli Liderimizin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev NATO-nun ən yüksək kürsülərindən bəyan edərək bildirir ki, Azərbaycan həqiqi etibarlı tərəfdaşdır, biz dünyanın müxtəlif yerlərində həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirakçıyıq. Biz artıq sübuta yetirmişik ki, tərəfdaşlıqda möhkəmik.

Vaxtilə NATO-nun baş katibi olmuş Yaap de Hoop Sxeffer də Azərbaycan dövlətinin beynəlxalq hərbi əməkdaşlığını yüksək qiymətləndirərək deyirdi ki, mən Azərbaycana və onun Prezidentinə Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakına görə NATO-nun təriflərini ünvanladım. “Azərbaycan Əfqanıstandakı əməliyyatlarda da iştirak edir, NATO əməliyyatları olmasa da İraqda sülhməramlı əməliyyatlarda iştirak edir. Beləliklə, əməkdaşlıq üçün əla əsas var.”

## “...Azərbaycan bölgədə sabitləşdirici ölkədir”

Bu ilin aprelində Azərbaycan Müdafiə Nazirliyi ilə Çin Milli Müdafiə Nazirliyi arasında hərbi yardımın göstərilməsinə dair sənədin imzalanması Azərbaycanın beynəlxalq hərbi müstəvidə qazandığı uğurlarının davamıdır. Sənədi Çin Dövlət Şurasının üzvü, Milli Müdafiə naziri Vey Fenxen və bu ölkədə səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov imzalayaraq hərbi, hərbi-texniki, hərbi təhsil və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərini müzakirə etdilər.

Azərbaycan Respublikası Rusiya Federasiyası ilə də hökumətlərarası razılaşmaya əsasən uğurla inkişaf edən hərbi-texniki əməkdaşlığa malikdir. Mövcud çərçivədə ölkəmizə ən yeni hərbi texnikaların plana uyğun çatdırılmasını misal göstərmək olar.

Dünya hərb sənayesində özünəməxsus yeri olan Türkiyə, Rusiya, Fransa, Çin, İsrail, Cənubi Afrika Respublikasının şirkətlərinin iştirak etdiyi sərgilərdə Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan hərbi texnika və silahların nümayişi təqdir olunası haldır. "Azərbaycan Ordusu bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır - həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizatına görə. Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcəkdir. Ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir. Mən Ali Baş Komandan kimi bundan sonra da ordu quruculuğuna, ordunun inkişafına öz dəstəyimi verəcəyəm", - deyən Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, güclü Azərbaycan gücsüz Ermənistan ilə istənilən dildə danışa bilər. Prezident çıxışlarının birində onu da vurğulamışdır ki, biz sadəcə olaraq bölgədə, regionda sabitliyi qorumaq üçün hələ ki, danışıqlar yoluna üstünlük veririk. Çünki Azərbaycan bölgədə sabitləşdirici ölkədir.

Bütün bunlar onu deməyə əsas verir ki, həyata keçirilən xarici və hərbi siyasət Azərbaycanın bölgədə tam müstəqilliyinin mövcudluğuna əbədi təminatdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkil etdiyi “Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş “Hər birimiz Vətənə xidmət edirik” mövzusundakı yazı müsabiqəsinə təqdim edilir*

# Kursantların hüquqi biliklərinin artırılması üçün...

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. 11 ildir ki, ölkəmizdə İnsan Hüquqları Günü tədris ocaqlarında, təşkilat və müəssisələrdə təntənə ilə qeyd edilir. Sərəncama əsasən, ölkəmizdə "İnsan Hüquqları Aylığı" keçirilir, vətəndaşlara hüquqi məsləhət və tövsiyələr verilir, diqqət və qayğı göstərilir.*





Azərbaycan Ordusunun hərbi hissə və birləşmələrində də İnsan Hüquqları Günü ilə bağlı müxtəlif səpkili tədbirlər keçirilir. Zabit və əsgərlər bu tədbirlərdə fəal iştirak edirlər. Onlar belə mötəbər tədbirlərdə yeni nəşrlərlə tanış olur, hüquqi bilik və təcrübələrini artırırlar.

C.Naxçıvanski adına Hərbi Liseydə "İnsan hüquq və azadlıqları", "İnsan Haqları" və "Beynəlxalq humanitar hüquq" mövzularında dərslər keçirildi, kitab sərgiləri təşkil edildi. Hərbi liseyin kitabxanasında keçirilən tədbir kursantlar üçün yaddaqalan oldu. Əvvəlcə mayor Natiq Rəhimov kursantlara mövzu ilə bağlı geniş məlumat verərək bildirdi ki, bütün insanların irqindən, dilindən, dinindən və cinsindən asılı olmayaraq, hüquq bərabərliyi vardır. Bu hüququ onların əlindən almağa heç kimin haqqı yoxdur.

Sonra Döyüş Hazırlığı və Hərbi Təhsil İdarəsinin zabiti mayor Firavan Şərfalıyev çıxış etdi. O bildirdi ki, hər il ölkəmizdə "İnsan Hüquqları Aylığı" keçirilməsinin böyük əhəmiyyəti var. "Aylıq çərçivəsində keçirilən tədbirlərdə şəxsi heyət hüquqi biliklərini daha da artırır, zənginləşdirir. Əziz kursantlar, gələcəyin zabitləri. Sizlərin hüquqi biliklərinizi təkmilləşdirməyiniz daha vacib və zəruridir. Tədbir başlamazdan əvvəl kitabxanadakı kitabları nəzərdən keçirdim. Kitabxana fondunda hüquqi biliklərinizi artırmaq üçün kifayət qədər material var. İnanıram ki, siz bundan sonra da hüquqi biliklərinizi artırmaqda davam edəcəksiniz".

Hərbi liseyin kitabxana müdiri Zemfira İsmayılova çıxışında qeyd etdi ki, ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi istiqamətində çox mühüm tədbirlər görüldü. "İnsan hüquq və azadlıqlarının daha da etibarlı qorunması üçün əsaslı islahatlar başlandı. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini tanıdığını bəyan etdi və beynəlxalq paktlarda əksini tapmış insan hüquq və azadlıqlarının təsbitinə böyük önəm verildi. 1995-ci ildə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiyanın qəbul edilməsi nəticəsində insan haqlarının qorunması istiqamətində çox mühüm addımlar atıldı. Azərbaycan Respublikasının Əsas Qanunu insan və vətəndaş azadlıqlarının, hüquqlarının təmin olunmasını dövlətin ali məqsədi elan etdi. Bu da ölkədə aparılan irimiqyaslı islahatlar üçün möhkəm, dayanıqlı qanunvericilik bazası yaratmağa imkan verdi. Konstitusiyanın 26-cı maddəsinə əsasən, hər bir vətəndaşın qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır. Vətəndaşı olduğumuz Azərbaycan dövləti hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir".

Sonra kursantlar biliklərini daha da artırmaq məqsədilə mövzu ətrafında çıxış edənlərə müxtəlif suallar ünvanladılar.

Çıxışlar başa çatdıqdan sonra kursantlar nümayiş etdirilən kitablarla yaxından tanış oldular.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Əsgər məktubu



Salam, ana. Necəsən? Bilirəm ki, məktubumu otağımda, çarpayımın yanında, Vətənə sədaqət andı içdiyim gün birlikdə çəkdirdiyimiz şəklin qarşısında oxuyacaqsan. Heç kəsə bildirməsən də, ürəyində ayrılıq həsrəti var. Bu həsrət Vətənə xidmət edən oğulu görmək həsrəti olsa da, səbrlə tərxis olunacağım günün intizarındasan. Yanına qalib əsgər kimi qayıtmaq istəyirəm. Narahat olma. Mən uzaqda deyiləm. Əsgər formasında gördüklərinin hamısı mənəm. Axı o formanı daşıyanların hamısı bir məqsəd üçün yaşayır - Vətənin keşiyində dayanmaq, torpaqlarımızı müdafiə etmək...

Xidmətə gələn günlər bir az darıxırdım. Ancaq indi çoxlu silahdaşım, döyüş yoldaşlarım var. Döyüş yoldaşlarım dəyəndə ürəyinə başqa fikirlər gətirmə. Bizi qarşıda müqəddəs bir döyüş gözləyir - Qarabağı düşməndən azad edəcəyimiz döyüş. Əsgər yoldaşlarım kimi, mən də həmin günü səbrsizliklə gözləyirəm.

Bilirəm ki, bütün əsgər anaları kimi sən də daim düşünürsən: görəsən oğlum nə yeyir, nə içir. Sən də rayonumuzda yerləşən hərbi hissədə əsgərlər üçün yemək bişirirsən. Hər dəfə nahar etdikdə sizlər yadıma düşürsüz, yeməkdə sənin əlinin dadını hiss edirəm.

Bölməmizdə hər cür şərait yaradılıb. Eynilə evdə olduğu kimi dadlı yeməklər bişirilir. Ana bildiyimiz analar, bacı bildiyimiz bacılar milli mətbəximizin gözəl təamlarından hazırlayırlar. Xidmətimi uğurla davam etdirirəm. Gənc əsgər hazırlığından sonra ön xətdəki hərbi hissələrdən birində xidmət etmək qürurvericidir. Həvəslə xidmət edir, öhdəmə düşən vəzifələri vaxtında və dəqiq yerinə yetirirəm. Ordumuza bacarıqlı əsgər, Vətənimə layiqli övlad olmaq üçün əlimdən gələni edirəm. Ən böyük arzum əsgəri xidmətimi nümunəvi başa vuraraq sizlərin yanına başıuca qayıtmaqdı.

Xidmətdə həm də hərbi biliklərə yiyələnirik. Savadlı komandirlərimiz bizə döyüş hazırlığından, taktiki hazırlıqdan və digər ixtisaslar üzrə dərslər keçirlər. Keçirilən dərslərdə mənə təhkim olunan silahın sirlərinə yiyələnmişəm, ondan istifadə etmək bacarığı qazanmışam. Bir sözlə, ordumuza layiqli əsgər kimi formalaşmışam.

Atam necədir? Hər gecə mənə və qardaşıma Kəlbəcərdən, Şuşadan, Laçından danışardı. Oraların gözəlliyindən, təbiətindən söz açanda kövrələrdi. Ali Baş Komandanımız döyüş əmri verərsə, torpaqlarımızı işğalçılardan təmizləyəcəyik. Bu günü siz də gözləyirsiniz. Onda atamın gözlərindəki sevinc hissini görmək, o torpaqlara birlikdə addım qoymaq mənim üçün ən ülvi hiss olacaq. Məni xidmətə yola salanda dediyi sözü heç vaxt unutmaram. "Sən Azərbaycan Ordusunun əsgərisən. Nə düşməndən, nə də onun atacağı gülləndən heç vaxt qorxma." Atamın sözləri torpaqlarımız azad olunanadək mənim şüarım olacaq. O anlar çox da uzaqda deyil. Atam hər yerdə qürurla deyə bilər ki, Azərbaycanın güclü ordusu və ordumuzun vətənpərvər döyüşçüləri var. Mənim də oğlum onların sırasındadı.

Bacım, qardaşım, dostlarım - Kamran, Vüqar necədilər? Onlara da salam söylə. Bacımın oğluna da məktubumu oxuyarsan. Nihad da ordumuzun gələcək vətənpərvər əsgəri olacaq. Ona ordumuzun gücündən, Mübarizin, Fəridin, Çingizin, Samidin və başqa şəhidlərimizin qəhrəmanlıqlarından danışın.

Sən əsgər anasısan.

Sən xoşbəxt anasan, ana!..

Sağ olun!..

**Əsgər**
**Kamran MƏMMƏDLİ,**
**"N" hərbi hissəsi**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan ordusunun işğal etdiyi Ağdərə ərazisində yerləşdirilən bölmələrindən birində valideynlərin böyük narazılığına səbəb olan insident baş verib.

Yerevan şəhər sakini Stella Bağdasaryan öz facebook səhifəsində iki məsələ ilə bağlı Ağdərə polis idarəsinə müraciət etdiyini yazıb.

S.Bağdasaryan ön xətdə xidmət edən oğlunun xidmətini təhlükəsiz yerə dəyişmək üçün 500 ABŞ dolları ödədiyini əsgər valideynləri ilə bölüşüb. Qadın sosial şəbəkədə oğlunu incitməmək əvəzində ondan rüşvət tələb olunduğunu və eyni zamanda intim əlaqədə olmaq təklif edildiyini göstərib.

Övladının evə sağ-salamat dönməsi üçün belə qeyri-qanuni hallara birtəhər dözəcəyini etiraf edən Stella, böyük nifrət hissi ilə qeyd edir ki, bir zabit ondan rüşvət alır, digəri isə ona əxlaqsız təklif edir. Əsgər anası zabit barədə polis şöbəsinə şikayət etdiyini qeyd edib. Hələlik hərbçi barədə tədbir görülmədiyindən məyus olduğunu deyən S.Bağdasaryan bu işi belə qoymayacağını, hətta Müdafiə Nazirliyinə və Yerevan şəhər prokuroruna da ərizə ilə müraciət edəcəyini yazıb.

Əsgər anasının paylaşdığı bu informasiya sosial şəbəkə istifadəçiləri tərəfindən böyük narazılıqla qarşılanıb və hamı S.Bağdasaryana dəstək verməyə hazır olduğunu yazıb.

Ermənistan Müdafiə Nazirliyi məsələyə reaksiya verməyib.

* * *

Azərbaycanın işğal olunmuş Cəbrayıl rayonu ərazisində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində tükürpədici hadisə baş verib. Ön xətdə xidmət edən hərbi qulluqçu Aleks Androsyanın mütəmadi olaraq xidmət yoldaşları tərəfindən cinsi istismara məruz qaldığı bəlli olub.

Hərbi qulluqçu həkim ekspertizasından keçirilmək məqsədilə Cəbrayılda yerləşən hərbi hospitala göndərilib. Hadisə baş verən bölmənin komandirinin Yerevanda yüksək vəzifəli şəxsin qohumu olması səbəbindən məsələ ictimaiyyətdən gizlədilir.

Faktla bağlı cinayət işi açılmayıb. Xidməti araşdırma aparıldıqdan sonra məsələ ört-basdır edilib.

Əsgərin valideynləri övladlarının başına yenidən başqa oyunlar açılmasın deyə, susmaq məcburiyyətində qalıblar. A.Androsyanın anası oğlunun hərbi xidməti bitirdikdən sonra, nəinki bu işdə əli olanları, hətta bölmədə xidmət edən və məsələni ört-basdır etməyə çalışan hər kəsi məhkəməyə verəcəyini bildirib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Medallı igidlərimiz*

# Cəhridən Lələtəpəyə, Lələtəpədən əbədiyyətə

*Rasim Məmmədov 1977-ci il mayın 20-də Babək rayonunun Cəhri kəndində anadan olmuşdu. Lələtəpə yüksəkliyinə qalxanacan 39 illik məsafə qət etmişdi. Onu Cəhridən Lələtəpəyə qədər aparan yol onun ömür yoludu, ömür yolunun bir hissəsi olan döyüş yoludu...*



Rasim Məmmədov 1994-cü ildə Cəhri 1 nömrəli kənd tam orta məktəbini bitirib. 1996-2000-ci illərdə Bakı Ali Birləşmiş Komandirlər Məktəbində təhsil alıb. Mayor rütbəsinədək yüksəlib, tank taborunun komandiri olub. 2016-cı il aprelin 4-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub. Ailəli idi. İki övladı var.

Cəhridə Rasimin anası Bəsti xanım "Döyüşdə hər şey ola bilər. Kişi cəsur olar, canından, qanından da keçər, amma torpağından keçməz. Vətəni qorumaq lazımdı. Oğlum da, yoldaşım da özü seçdi bu yolu. Atası kimi balası da Vətəni sevdi, torpağı sevdi, ailəsindən üstün tutdu hər şeyi", - belə dedi.

Ağır illər idi o illər. Əli silah tutan hər kəs torpağı qorumağa can atırdı. 1990-1993-cü illərdə ermənilər Sədərəyə 14 dəfə hücum etmişdilər. Arasıkəsilməz hücumlar nəticəsində Sədərəkdə 500-ə yaxın ev, məktəb, inzibati bina dağıntılara məruz qaldı. Oğullar torpağı qorudular, geri çəkilmədilər. Çətin bir zamanda, silahın, texnikanın çatışmadığı, nizami ordunun olmadığı bir şəraitdə Sədərək müdafiə olundu. Ürəyindəki Vətən sevgisini silaha çevirən oğullar son nəfəsə qədər döyüşdülər. Həmin döyüşlərdə iştirak edənlər arasında Əbdül Məmmədov da vardı. Naxçıvan torpaqlarının müdafiəsi üçün ilk özünümüdafiə batalyonları yaradanlardan biri olan Əbdül Məmmədov 1992-ci ilin mayında komandiri olduğu taborla düşmən hücumunun qarşısını alarkən ağır yaralandı, hər iki ayağı iflic oldu.

Atasını əlil arabasına məhkum olunmuş görən Rasimin qarşıya qoyduğu məqsədi onu Cəhridən Bakıya gətirdi.

Anası Bəsti xanımın dediklərindən: "Rasim 9-cu sinifdə oxuyanda məktəbdə eşitmişdi ki, Sədərəkdə döyüş gedir. Gəldi ki maşın olsa, gedib atama kömək edərəm. Atası vuruldu, yenə də qorxmadı bu hadisədən. Hərbini seçdi. Mən atamın yolunu gedəcəm, - dedi. Atası da onu dəstəklədi, dedi gedin torpağımızı qoruyun. Düşmən əlində olan torpaqlarımızı qaytarmaq lazımdı".

Beləcə, Rasim atasının da xeyir-duası ilə Bakı Ali Birləşmiş Komandirləri Məktəbinə daxil olur. O, hər şeydən əvvəl təhsil almaq, hərbi biliklərə yiyələnməyi qarşısına məqsəd qoymuşdu. İstəyinə çatdı. Mayor idi Rasim...

Həyat yoldaşı Samirə xanımın xatirələrindən: "Rasim evdə həmişə internetdən vətənpərvərlik mahnıları yükləyirdi. Hərbi hissəyə gedəndə həmin mahnıları əsgərlərinə dinlədirdi. Rasimin telefonunda "Çırpınırdı Qara dəniz" mahnısı da vardı. Çox sevərdi bu mahnını... ".

Samirə xanım bizimlə söhbət etsə də, gözü masadakı şəkillərdədi. Hər biri müxtəlif illərin, yaşanan günlərinin xatirəsidi. Şəkillərə baxdıqca çöhrəsinə gah təbəssüm qonur, gah qürur, gah da iki il öncə aldığı xəbərin kədəri.

"Biz Horadizdə olanda döyüşlər başlamışdı. Qonşulardan eşitdim. Narahat olmayaq deyə, Rasim mənə təhlükə olduğunu deməmişdi. Narahatçılıq olub-olmadığını soruşdum, qorxma, deyib təskinlik verdi. Aprelin 1-dən 2-nə keçən gecə atışmalar başladı və biz gecəni səhərə kimi zirzəmidə qaldıq. Sonuncu danışığımızda, hər şey yaxşıdı, düşmənin anasını ağlatdıq", - dedi. Aprelin 4-ü zəng vurdum. Telefona cavab vermədi. Bununla da bizim həyat hekayəmiz bitdi. Mən çox qürur duyuram ki, Rasimin həyat yoldaşıyam".

## Tarixin aprel zəfəri

1990-cı illərdə ölkə daxilində yaşanan böhrandan, nizami ordunun olmamasından istifadə edən ermənilər torpaqlarımızın 20 faizini işğal etdi. Atəşkəsi pozmaqda davam edən ermənilər 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə daha genişmiqyaslı təxribat törətmək istədi, yaşayış məntəqələrini, mövqelərimizi müxtəlif silahlardan intensiv atəşə tutdular.

Ordu hissələrimiz əks-hücuma keçdi. Düşmən böyük məğlubiyyətə düçar oldu.

## Son nəfəsədək

Bu döyüşlərdə mayor Rasim Məmmədov da şəhid oldu. Hələ məktəb yaşlarından qəlbində, ruhunda gəzdirdiyi müqəddəs bayrağı müqəddəs torpaqlara sancanların arasında olmuşdu. Lələtəpə yüksəkliyində şəhid olmuşdu, son gördüyü Lələtəpəyə sancılan azadlıq rəmzi - bayrağımız olmuşdu.

Camaat şəhidini qarşılamaq üçün hava limanına axışmışdı. Əbədiyyətə qovuşmuş mayor Rasim Məmmədov son mənzilə yola salındı.

Bəsti ana o günləri belə xatırlayır: "Cəhriylə Naxçıvan arasındakı yollarda maşınlar düzülmüşdü. İndi də kəndimizin camaatı mənə deyir ki, hələ də qulağımızdan o səs getmir. Rasimi son mənzilə "Şəhidlər ölməz, Vətən bölünməz" harayıyla yola saldılar. Rasim Cəhridən Bakıya gedəndə Əbdülün oğlu kimi getmişdi, Bakıdan Cəhriyə qayıdanda xalqın oğlu kimi qayıtdı. Mən oğlumla fəxr edirəm.

Rasimin şəhid kimi geri dönməsi ilə bağlı sual verirlər. Əbdül kişi verilən sualı belə cavablandırır: "Lazım gəlsə, 3 oğlumu da Vətən torpaqlarının müdafiəsinə göndərərəm".

## 24 il və 24 gün

24 il. 24 il müharibənin acısını daşıdı əlil arabasında, oğlunun ölümünə yalnız 24 gün dözə bildi. Əbdül Məmmədov ruhən güclü insan idi, əgər fiziki sağlamlığı imkan versəydi, düşmənin ayağı işğal olunmuş torpaqlardan kəsilənəcən dayanardı Vətən torpaqlarının keşiyində. Ayaqları sözünə baxmırdı. Yarımçıq qalan arzularının ümidgahı olan oğlu, uğrunda qanını tökdüyü üçrəngli bayrağa bükülərək geri dönmüşdü. Adını Vətən tarixinə əbədiyyən həkk etdirmişdi Rasim Əbdül oğlu Məmmədov. Vida mərasiminə gələn qonaqlarını yola salandan sonra ata oğlunun yanına tələsdi. Onunla bu qələbənin sevincini paylaşmaq üçün. 23 illik həsrətdən sonra azad edilən torpaqların ətrini özü ilə gətirən, qələbə ruhunu daşıyan bayrağın kölgəsində uyuyan oğlunun məzarı yanında ikinci bir məzar qazıldı. Əbdül oğlunun yanında dəfn edildi.

## Vətən uğrunda

Xidməti dövründə mayor Rasim Məmmədov bir sıra fəxri fərman və medallarla təltif olunmuşdu. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2016-cı il tarixli sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olundu. Şəhidin ailəsi Naxçıvan şəhərindəki Gənclər şəhərciyi yaşayış kompleksində 3 otaqlı mənzillə təmin olundu.

## "Mən Vətəni atam bildim"

Övladı Aysu 9-cu sinifdə oxuyur. Atasının arzusuna görə ağ xalat geyəcəyinə israrlıdır. Yaşadıqları hərbçi həyatı onları da bərkidib. Bizimlə söhbətə qoşulur: "Aprelin 3-ü anama mesaj yazmışdı ki, oğluma da, qızıma da deyin, mənimlə fəxr etsinlər. Atamın son sözləri bu olub. Qürur hissi keçirirəm ki, belə bir insanın qızıyam. Hamı deyir ki, Vətən ana deməkdi, mənsə Vətəni atam bildim. Çünki atamdan öyrəndim Vətəni necə qorumağı, bayrağı sevməyi. Biz özümüz də uşaqlıqdan Vətən sevgisi ilə, vətənpərvərlik mahnıları ilə, Vətən laylası ilə böyümüşük".

Oğlu Asim 5-ci sinif şagirdidir. "Böyüyəndə atam kimi olacağam", - deyir. "Onu hərbi formada görəndə həm qürur duyurdum, həm də özümü onun yerində hiss edirdim. Anam mənə hərbi forma tikdirib. Gündə neçə dəfə geyinib çıxarıram..."

## Biz qayıdacağıq

Samirə xanım da Asimin seçimi ilə razıdır. Onun atası kimi peşəkar hərbçi olacağına inanır: "Rasim bizi Horadizdə bayraq meydanına apardı. O hündürlükdən işğalda olan torpaqlarımızı göstərib deyirdi ki, biz gec-tez o torpaqlara qayıdacağıq. Bizim bayrağımız orada dalğalanacaq.

Yaxın vaxtlarda hamı doğma ocağına qayıdacaq...".

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Xəbərlər:
# hadisələr, faktlar

## İstanbulun fəthinin 565-ci ili qeyd olunub



İstanbulun fəth olunması münasibətilə "Fatehin 565-ci ili" devizi altında mərasim keçirilib.

Mərasimdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 1453-cü ildə İstanbulun fəth olunmasını türk dünyasının yeni qalibiyyət tarixinin başlanğıcı kimi dəyərləndirib.

Qeyd edək ki, 1453-cü il mayın 29-da Fatih Sultan Mehmetin sərkərdəliyi ilə İstanbul boğazı fəth olunaraq Osmanlının tabeliyinə keçib.

## "Taliban" Əfqanıstanın Tacikistanla sərhədindəki rayonu ələ keçirib



Əfqanıstanın şimal-şərqində Tahar vilayətinin Tacikistanla sərhədində yerləşən Daşti-Qala rayonu "Taliban" hərəkatının nəzarətinə keçib.

Rayonun administrativ mərkəzində gedən döyüşlər nəticəsində 5 hərbçi həlak olub, 4 nəfər isə yaralanıb, həmçinin yerli könüllü dəstələrinin 10 döyüşçüsü əsir götürülüb. Taliblər ələ keçirdikləri dövlət müəssisələri binalarına od vurublar.

Tahar vilayət polis idarəsinin mətbuat-xidmətinin rəisi Xəlil Asirin sözlərinə görə, yerli sakinlərin əksəriyyəti döyüş gedən əraziləri tərk edib.

Qeyd edək ki, 2014-cü ildə ABŞ hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarında çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən yaraqlılar böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşması da aktiv fəaliyyət göstərir.

## İranda iki terror qrupu zərərsizləşdirilib



Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində 2 silahlı terror dəstəsi zərərsizləşdirilib.

Bu barədə açıqlamanı İran İslam İnqilabının Mühafizəçiləri Korpusunun nümayəndəsi general Məhəmməd Rza Yəzdi verib.

Generalın sözlərinə görə, xüsusi təlim keçərək İrana göndərilən terrorçular İran İslam Respublikasının qurucusu İmam Xomeyninin doğum günü tədbirlərində terror aksiyası törətməyi planlaşdırıblar. Hər il iyunun 4-də İranda İmam Xomeyninin doğum günü kütləvi tədbirlərlə qeyd olunur. Bundan istifadə etməyə çalışan terrorçular çadralı qadın paltarında imamın məqbərəsinə daxil olub partlayış törədəcəkdilər.

General bəyan edib ki, İran İslam İnqilabının Mühafizəçiləri Korpusu xalqın və ictimai-siyasi sabitliyin keşiyində məğrur dayanıb. İrana qarşı təxribatlara can atmaq əbəs işdir.

## Ermənistanda mer və müavini həbs olunub



Ermənistanda siyasi ixtişaşların hazırlanmasında şübhəli bilinən bir neçə vəzifəli şəxs həbs edilib.

Həbs olunanlar arasında Masis şəhərinin meri David Ambartsumyan və onun müavini Karen Ohanyan da var.

Xatırladaq ki, "Sasna çrer" qruplaşmasının üzvləri ötən həftə Yerevan meriyasının və Baş Prokurorluğun binalarına basqın ediblər. Onlar baş nazir Nikol Paşinyandan həbsdə olan qruplaşma üzvlərinin azad olunmasını tələb ediblər.

**AZƏRTAC-ın materialları əsasında**



*Ön xətdə düşüncələr*

# Arazı duru gördüm...

İllərdi **ezamiyyətdən əvvəl** nə haqda yazacaqlarımı bilmişəm, nə yazacağımı yox. Düşüncələrim neçə gündü nə haqda yazacaqlarıma köklənib; gecənin içindən keçib Cocuq Mərcanlıya gedirəm...

Könlümüzdən başlayan yollardan biri Cocuq Mərcanlıdan keçir. Kəndin yaxasından keçən niyyət yolu, muraz yolu bizi Şuşaya aparacaq. Azərbaycan əsgəri o yola çıxmaq istəyiylə xidmətdədi. O yol min illərdən sıyrılıb min illərin həmayili olacaq yoldu. Görənləri kövrəldən, kövrəklik içində duyğulandıran yol göstəricisi - Cocuq Mərcanlı-Şuşa - məni də kövrəldəcək, duyğulandıracaq: araya düşən səngərlər yaxın vaxtlarda Azərbaycan əsgərinin ayaqları altında əziləcək, çığnanacaq, varlığını itirəcək; Azərbaycan əsgəri səngərsiz sərhədlərimizdə dayanacaq. Məni Cocuq Mərcanlıya bu dönməz inamın işığı çəkir. Bu munis duyğu ruhumuzun can köynəyidi...

2015-ci ilin payızıydı. Onda bizi çəkən ünvana tərəf palçıq yara-yara irəliləyirdik. Yollar ayağımızın altında sürüşmürdü, əlimizdən yapışıb irəliyə - döyüş növbətçiliyi aparan əsgərlərimizin yanına çəkirdi. Onda düşüncələrimdə heysiyyətli bir titrəyiş hiss eləmişdim. Cocuq Mərcanlıda ağacların yarpaqları təkcə təbiətin hökmüylə saralmamışdı. Bu sarılıq həm də illərlə öyrəşdiyi təmasdan, nəfəsdən uzaq düşməyin nəticəsiydi. Güvənclə gözucu beş-altı addım aralıda dayanmış əsgərə baxmışdım, əsgər qətiyyətlə Lələtəpəyə...

Lələtəpədən əsən təntələk yellər Cocuq Mərcanlıda ağacların yarpaqlarına qonurdu. Bunu mən də duyurdum, döyüş növbətçiliyindən qayıdan əsgərlər də. İndi yellər 25 ay əvvəl əsdiyi kimi əsmir, ayrı şövqlə, ayrı istəklərlə, ayrı sevgilərlə əsir, şübhəsiz - hər səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamıyla yenidən qurulan Cocuq Mərcanlıya salama gəlir. Bu, şükranlıqdı, gözaydınlığıdı...

Arazın könül küsdürən suları durulaşıbmı görəsən? Görəsən, 2015-in payızında gəlişimi, o gəlişimdə Cocuq Mərcanlının görkəmindən üzülməyən baxışlarımı sıxan həsrəti, nisgili, sızıltını xatırlayırmı?

Lələtəpəni gözdən qoymayan əsgərlərin baxışlarına qarışan baxışlarımın çılğınlığını yumşaldan kəlmələr Arazın dalğalarının kürlüyünə qarışmışdı: "Yaxın vaxtlarda Lələtəpəyə belə baxmayacağıq. Siz də, biz də. Yaxın vaxtlarda düşmən Lələtəpədən çox-çox uzaqlarda - sərhədimizin o üzündə olacaq!". Qürurlanmışdım. Əzizlərinin nəfəsiylə isinməyən evlərin ürək göynədən görkəmindən sürüşən nəzərlərim həyət-həyət boyun bükən, gözləri yol çəkən ağacların yarpaq-yarpaq Lələtəpəyə sarı boylandığını duymaq çətin deyildi. Onda döyüş növbətçiliyi aparan əsgərlərimizin qətiyyətində çırpınan döyüş əzmini bir ümidin, bir inamın işığı bilmişdim. Payız ötdü, qış getdi, yaz gəldi. O ümid, o inam 2016-cı ilin aprelində boy göstərdi. Azərbaycan əsgəri düşmənin irimiqyaslı təxribatının qarşısını aldı, döyüşdü, qələbə qazandı - Lələtəpəni ermənisizləşdirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cocuq Mərcanlının göylərinə meyillənən buludları dağıdan bu qələbəni tarixi qələbə adlandırdı, onun dərsliklərə salınmasını tövsiyə etdi.

2016-cı ilin aprelində Lələtəpədəydim. Bayrağımızın önündə diz çökmüşdüm, onun ucalığına əlim çatmazdı, çatsaydı, mehrini gözlərimə nur edərdim.

Lələtəpəni göylərə dikəldən qolları görmüşdüm, Şuşaya aparacaq yolları görmüşdüm. Onda Tahir Misirxanovdan eşitdiklərim düşüncələrimin can ortağına dönmüşdü: "Bu qələbə başlanğıcdı..." Sinəm ürəyimə darlıq etmişdi. "Böyük Qələbə ərəfəsindəyik"...

Azərbaycan Respublikasının Prezidenti bu ilin yanvarında Cocuq Mərcanlının yenidən qurulması haqqında sərəncam imzaladı. Cocuq Mərcanlı yenidən tikildi, sakinlərini bağrına basdı...

Aylardan bəri xəyalımda əzizlədiyim Cocuq Mərcanlıya gedirəm. Görəcəklərim mənə də könül xoşluğu verəcək...

Hələlik, Cocuq Mərcanlıya aparan yolun yolçusuyam. Azərbaycan əsgərinin Vətən sevgisiylə, hünəriylə, qətiyyətiylə Cocuq Mərcanlıdan Şuşaya aparacaq yolun da yolçusu olacam!..

Bu sərin, bu həlim yaz günü görəcəklərimin **ezamiyyətdə** "Belə yolları işğaldan azad edəcəyimiz bütün ərazilərdə də görəcəyik!" - inamı düşüncələrimi üstələyir. Gözəl yolların ən gözəli bu yoldu!.. Baxışlarım yol göstəricisindən üzülmür: Cocuq Mərcanlıdan - Şuşaya.

Bu yol 2016-cı ilin aprelində gördüyüm yoldumu?..

Son dərəcə rahat yolların 2016-cı ilin aprelinəcən kəndin palçıqlı, çala-çuxurlu yolları olduğuna qətiyyən inanmırsan...

Son dərəcə zövqlə tikilmiş evlər - 2016-cı ilin aprelinəcən burada damı uçmayan, daşı düşməyən ev yoxuydu...

Harasa tələsənlərin, hardansa qayıdanların baxışlarında sezilən şükranlıq, əminlik və bir də bir nənənin dedikləri - "Ölmədik, bu günü gördük...". Geri qayıtmaq, əsgərlərin mənə doğma baxışlarını yenidən gözlərimə köçürmək istəyirəm.

Araz 2015-in payızında gördüyüm Araz deyil; dalğaları həlimləşib, suları bir qələbə qədərincə durulaşıb...

Yel əsir. 2015-in payızında əsdiyi kimi əsmir; ağacların yarpaqlarına sığal çəkib Lələtəpəyə can atır...

O vaxtlar görkəmi göz küsdürən evlər yoxdu; təzə evlər tikilib, infrastrukturlar istifadəyə verilib. Cocuq Mərcanlıların dönüşü kəndin gözəlliyini tamamlayır, kəndin gözəlliyini bu dönüşmü? - özümə ünvanladığım sual cavabsız qalır. "Hər ikisi bir-birini" - deyirəm. Dediklərim əsən yellərə qarışır.

2015-ci ilin payızında döyüş növbəsi aparanların "üç addımlığında" gördüyüm nar ağacının çiçəklərinin düzümündə indi başaçılmaz bir gözəllik görürəm. "Bu qüdrət hünərin qüdrətidi, aprel zəfərinin qüdrətidi" - düşünürəm...

Qarşı tərəfə baxıram; uzaqlarda düşmən mövqeləridi. Kapitan Nahid Rzayev baxışlarımı sıxan mətləbi duyur:

- O mövqelər müvəqqətidi. O mövqelərin ömrü Ali Baş Komandanın əmrinəcəndi. Yüksək döyüş hazırlığına malik əsgərlərimiz sələflərinin uğurunu davam etdirəcək, işğalı sona çatdıracaq.

Bu inam mənə Ali Baş Komandanın "Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etməyə qadirdir" - kəlamını xatırladır; sülh danışıqları baş tutmasa, əsgərlərimiz 2016-cı ilin aprel ovqatıyla döyüşəcək...

Kapitanın dediklərini hələ soruşmadığım sorğuya cavab bilirəm; "Müdafiə naziri general-polkovnik Zakir Həsənovun döyüş bölgələrində əsgərlərlə təmasları, söhbətləri inamın inamı, güvəncin güvənci olur. Əsgərlərimizin mənəvi-psixoloji hazırlığı həm də belə formalaşdırılır".

"Aprel döyüşlərində iştirak etmiş əsgərlərimizin, necə deyərlər, bir ayağı buradadı. Gəlirlər, qardaş səmimiyyətiylə görüşürlər, söhbətləşirlər..." - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Maarif Quliyev belə deyir.

Zabitin məmnunluğu mənə könül xoşluğu verir.

Əsgər İbrahim Hüseynovun dediklərini kapitanın inamının davamı bilirəm:

- Qələbə qazanacağıq. O sevinci əsgər kimi yaşamaq istəyirik!

Həmin gün Şuşanın dağlarını dumansız görəcəyik...

Həmin gün İsa bulağının zümzüməsi elə gözəl şirinləşəcək ki...

Həmin gün Cıdır düzünün gülü-çiçəyi qalib əsgərlərimizin ayaqlarına səriləcək...

Həmin gün Xarı Bülbülün duruşu gözəlləşəcək...

Həmin gün Xan qızının ruhu kövrəkliklə, "Qara bağlar qırıldımı, Qarabağım?" - deyəcək...

Həmin gün Məmməd Arazın ruhu "Vətən sizə oğul deyir!" - deyəcək...

Həmin gün gözaydınlığı biçimində günlü yağış yağacaq. Bu gözəlim yağışı göylərin yerlərə xeyir-duası biləcəyik...

Həmin gün Böyük Qələbənin doğum günü olacaq!..

İqtisad universitetinin məzunu olan əsgər İbrahim Hüseynov "Aprel döyüşlərində tələbəydim. Canımız əsgərlərin yanındaydı. Özümüzə icazə vermədilər. Ruhumuz əsgərlərin sırasında oldu. İndi hərbi xidmətdəyəm. O döyüşlər haqqında döyüşlərdə iştirak edənlərin söhbətlərini vətənpərvərlik dərsi bilirik. Döyüş növbətçiliyini də bu ruhla aparırıq" - kəlmələrini hərbi xidmətdə olan bütün əsgərlərimizin də dediyinə zərrəcə şübhəm yoxdu. Bu gözəl kəlmələri Cocuq Mərcanlıda eşitmək necə də xoşdu!..

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ikinci ömür verilən Cocuq Mərcanlıda; Cocuq Mərcanlıların ürəyinə yük olan sıxıntılar, ağrı-acılar sovuşub. Bir ağsaqqal evinin divarını o qədər həvəslə, o qədər həssaslıqla, o qədər incəliklə sığallayır ki, aydınlığıyla eşitdiyim, ruhumun can köynəyinə dönən "Şükür, qayıtmışıq!.." - kəlmələrini bu qayıdışa ruhun cana qayıdışı bilirəm. Azərbaycan əsgərinin döyüş növbətçiliyi apardığı səmtə baxırıq. O da, mən də.

Lələtəpənin ermənilərdən təmizlənməsi Cocuq Mərcanlının təhlükəsizliyini təmin edib. Ötən ilin aprelinəcən düşmən bu istiqamətdə təxribatlara meyillənirdi. İndi burada belə təhlükə olmasa da, əsgərlərimiz döyüş növbətçiliyini böyük məsuliyyətlə aparırlar.

Xatırlayıram ki, Cocuq Mərcanlıya ilk gəlişimdə duru baxışlı əsgərlərimizlə kəlmələşən Arazın sularını bulanıq görmüşdüm. Onda əsgər Telman Qarayev demişdi ki, yaxın vaxtlarda sular duruluşacaq. İndi Arazın suları durulaşıb. Bunu təbiətin Azərbaycan əsgərinin aprel zəfərinə töhfəsi bilirəm, bu durulaşmanı 2016-cı ilin aprel zəfərinə yozuram. Zabitlər də, əsgərlər də yozumumdan razı qalır...

...Bu həzin, bu həlim yaz günü yaşadığım duyğuları **ezamiyyətdən sonra** Yunus Əmrənin ruhundan süzülən misralar tamamlayır:

O zəfərə salam olsun!
O zəfərin gətirdiyi o səhərə salam olsun!
Azərbaycan əsgərinin Vətən boyda səngərinə salam olsun!
Azərbaycan əsgərinə salam olsun!

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# "Əsgərə məktub" layihəsi çərçivəsində növbəti tədbir Samux şəhərində keçirilib




"Vətən uğrunda!" səyyar-təşviqat dəstəsi cəbhənin ön xəttində xidmət keçən hərbi qulluqçuların ruh yüksəkliyini daha da artırmaq məqsədilə "Əsgərə məktub" layihəsini Azərbaycanın müxtəlif regionlarında davam etdirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, növbəti kütləvi vətənpərvərlik tədbiri Samux rayonu İcra Hakimiyyətinin və Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Samuxda Heydər Əliyev parkında keçirilib.

İctimaiyyətlə ordumuz arasında əlaqələrin möhkəmləndirilməsinə xidmət edən layihə çərçivəsində görülən işlər və həyata keçirilən fəaliyyətlər barədə videoçarx nümayiş etdirilib. Çıxış edənlər layihənin əhəmiyyətini vurğulayaraq bildiriblər ki, bu cür tədbirlərin keçirilməsinin məqsədi Vətəni qorumağa hər an hazır olan vətənsevər gəncləri yetişdirmək, onlarda milli və hərbi vətənpərvərlik ruhunu gücləndirməkdir.

Sonra videobağlantı vasitəsilə və yazılı şəkildə Azərbaycan Ordusu sıralarında xidmət edən əsgərlərimizə xoş arzular çatdırılıb.

*Hərbi ənənələr, yeniliklər*

# Multirotor dronlar



Ölkəmizdə keçirilən sərgidə AMEA Yüksək Texnologiyalar Parkının rezidenti tərəfindən istehsal edilmiş altı ədəd multirotor dronların nümayişi həyata keçirilib.

Dronlardan həm mülki sahədə, həm də hərbi sahədə istifadə olunacaq. Onlar pilotsuz uçuş aparatları sinfinə aiddir, xarici analoqlarından fərqli olaraq çox ucuz başa gəlir və heç də onlardan geri qalmır. Dronlar xüsusi təyinatlı tapşırıqları da yerinə yetirəcək. Süni intellektə malik, avtopilot sistemi ilə təchiz edilmiş multirotor dronlar gecə və gündüz, müxtəlif hava şəraitində qarşıya qoyan bütün tapşırıqları yerinə yetirməyə qadirdir. Bununla yanaşı, dronlar mülki sahədə də ərazi xəritələrinin çıxarılmasını, müxtəlif hündürlükdə çəkilişlər aparılmasını, az çəkili yüklərin təyinatı üzrə çatdırılmasını, neft istismarı sahələrində və neft kəmərlərinin üstündə müşahidə aparılmasını, monitorinq işlərinin yerinə yetirilməsini həyata keçirəcək. Verilən məlumata görə, perspektivdə kəşfiyyat dronları ilə yanaşı, xüsusi döyüş təyinatlı kəşfiyyat tapşırıqlarını yerinə yetirməyə qadir olan dronların, hədəfi dəqiq məhvetmə qabiliyyətinə malik olan orta təsir radiuslu hərəkət edən sursatların hazırlanması, düşmənlə təmas xəttində qarşı tərəfin təxribat və kəşfiyyat qruplarının müşahidəsini, onların məhv edilməsi üçün radiopartladıcı, mühafizə vasitə və sistemlərin yaradılması da nəzərdə tutulub.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 376
Nüsxə 3525